Azərbaycan.- 2020.- 29 dekabr. S. 4.

# Azərbaycan və Türkiyə xarici işlər nazirləri arasında telefon danışığı olub

Dekabrın 28-də Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramovla Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirlər 10 noyabr tarixli üçtərəfli Bəyanatın icrası və bölgədə mövcud olan vəziyyəti müzakirə ediblər.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.